

## *Müşfiq CƏBİ*

***

Bütün yaxınlara yaxın gedəsən,
Uzaqdan baxasan uzaqlarına.
Hardasa mən səni qoyub gəlmişəm,
Gəl gedək mənimlə o çağlarına.

Gedək qarşılayaq öz-özümüzü,
Soyunaq bu yerdə tər üzümüzü.
Birtəhər aparıb bu ömrümüzü
Asaq bir ağacın budaqlarından.

Sanasan bu ömrü yuxu, gedəsən,
Ayılıb özündən qorxub gedəsən.
Qəfil bir səs gələ, çıxıb gedəsən,
Xəbərin olmaya ayaqlarından..!

***

Buralar çox uzaqdı,
Düşmək olmur yaxına.
Bəlkə, bir yol deyəsən,
Necə gəlim yuxuna?..

Ölmüşdüm ki, bilmirdim,
Doğulmuşam yenicə.
Darıxmağın vaxtını
Necə ölçüm sənəcən?

Özünə qayıtmaqdı
Bir yol özündən çıxmaq.
Bilsən, necə şirindi
Tək olanda darıxmaq.

Qoy bilim nə rəngdədi
Çək, nəfəsini yolla.
Özün gəlmirsən, bir yol
Barı səsini yolla...

***

Ölüm səndən ötrü, dirilməyim heç,
Hələ ölməmişdən məni, sağ ağla.
Bilirəm getdiyim yol çox uzaqdır,
Yuxuya getməmiş yolumu bağla.

Gözümü bağlama, yuxu görməyim,
Bu yuxu yaxına aparmaz məni.
Bir çiçək cildində, gül görkəmində
Bir kimsə yaxana aparmaz məni.

Qara gecələrin, qara adamı,
Gördüyün, gəzdiyin bu nə şəhərdir.
Bəsdir gözlərində daşıdın məni,
Mən sənin yuxunam, oyan, səhərdir.

***

Gecəsi üstünə çökmüş səhərəm,
Bir daha qızarmaz dan yeri məndə.
Səni axtarmağa gedirəm, gülüm,
Axtarma, tapmazsan can yeri məndə.

Özümdən içəri gedirəm, çəkil,
Əriyib qanıma qarışım təki...
Sən də gəl üstümdə elə ağla ki,
Zərrə də qalmasın qan yeri məndə.

Qarışıb gecəyə çəkdiyim bu ah,
Yaman çox gecikir bu gələn sabah.
Sənə də bir canlıq borcum var, Allah,
Onu da gəl alıb yan yeri məndən.

***

Nə qədər kiçikmiş dünya, İlahi,
Bir yer tapammadım sərəm, bu dərdi.
Ömrün divarında uçuq yer də yox,
İlahi, bəs hara hörəm bu dərdi?

Üzürük boşqabda bir qaşıq da yox,
Bu dəniz içində bir qayıq da yox.
İçimdə közərən bir işıq da yox,
Gedəm arxasınca görəm bu dərdi.

Nə sən izimdəsən, nə mən izində,
Çıxıb getdim, məni gəzmə özündə.
Bir adam tapmadım bu yer üzündə,
Götürüb apara, verəm bu dərdi..!

***

Belə sevdirmisən qurbanın olum,
Göy haqqı, yer haqqı, sevirəm səni!
Min kərə alışıb, yandım oduna,
Od haqqı, pir haqqı sevirəm səni!

Baş qoyub sinəmə nə danış, nə din,
Elə bir ah cəkim, ahıma isin.
Səni sevdiyimi kimsə bilməsin.
Tutduğun sirr haqqı, sevirəm səni!

Əllərin oxşasın saçımı dən-dən,
Sanki bu dünyada mən varam, bir sən.
Qorxma, səninləyəm, ölməyəcəksən,
O böyük bir haqqı, sevirəm səni!

Gəl öpüm, oxşayım mən səni rəng-rəng,
Ay saçı sarışın, ay bəxti qəşəng.
Mən Əqrəb bürcüyəm, sən isə Xərçəng.
Qoç haqqı, Şir haqqı, sevirəm səni!

Can alan ucuzdur, can verən baha,
Gəl ver saçlarını mən çəkən aha.
Baş vurub Mahura, endim Segaha,
Rast haqqı, Şur haqqı, sevirəm səni!

Sən orda tənha gəz, mən burda yalqız,
Bizimdir səmada o bir cüt ulduz.
Allahın özü də şahiddir, ay qız,
Yazdığım şeir haqqı, sevirəm səni!

